# İctimai fəal: Azərbaycanın qlobal məsələlərin həllində iştirakı bizi bir vətəndaş kimi çox qürurlandırır

İqlim dəyişikliyi, dünya üzrə qlobal temperaturun artması özünü quraqlığa məruz qalan ərazilərin sayının artmasında, təbii fəlakətlərin intensivliyində özünü büruzə verir. Orta illik temperaturun 2°C-yə çatması ilə bəşəriyyət daha dəhşətli faciələrlə üzləşə bilər. Bu səbəbdən də 2100-cü ilədək qlobal temperaturun 2ºC-in altında saxlamaq əsas hədəf kimi qarşıya qoyulub. Bu məqsədlə Paris İqlim Sazişinə əsasən qlobal istiləşməni sənayedən əvvəlki səviyyədən 1,5°C-yə qədər məhdudlaşdırmaq razılaşdırılıb.

İqlim dəyişikliyi, orta illik temperaturun normada saxlanılması bir qitənin, regionun deyil, bütöv bəşəriyyətin problemidir. Qürurverici haldır ki, Azərbaycan Respublikası bu qlobal problemin həllində yer alıb və təşəbbüslə çıxış edir. Ölkəmiz iqlim dəyişikliyinin qarşısının alınması kimi qlobal problemin həlli yolunda öz töhfəsini verməyə qərarlıdır və öz sözünü deyir.

Azərbaycan cəmi iki aydan sonra COP29-a ev sahibliyi edəcək. Mötəbər toplantıya hazırlıq çərçivəsində ölkəmizdə müxtəlif tədbirlər həyata keçirilir. COP29-da iqlim dəyişikliyi ilə bağlı mühüm məsələlər, problemlər və onların həlli yolları müzakirə ediləcək. Dünyanın müxtəlif ölkələrindən 70 mindən çox qonaq ölkəmizə gələcək. Azərbaycanın qlobal məsələlərin həllində iştirakı bizi bir vətəndaş kimi çox qürurlandırır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Gənclərinin Avropaya İnteqrasiyası Təşkilatının İdarə Heyətinin üzvü, ictimai fəal Nərgiz Xələf söyləyib.

O bildirib ki, 2015-ci ildə imzalanan Paris İqlim Sazişi BMT-nin İqlim Dəyişmələri haqqında Çərçivə Konvensiyasına əsasən 2020-ci ildən atmosferdəki karbon dioksidin azaldılmasına dair tədbirləri tənzimləyən bir razılaşmadır. Təbii ki, razılaşmanın əsas məqsədi xüsusən qlobal orta temperatur artımını 2 °C-dən çox aşağıda saxlamaqdır. Maraqlıdır ki, sonra mütəxəssislər tərəfindən aparılan hesablamalar bunun üçün 6 trilyon investisiya qoyulmasının vacibliyinə diqqət çəkdilər. Sual yaranırdı ki, həmin vəsaiti hansı ölkə ödəyəcək? Bununla bağlı müzakirələrə başlandı. Əslində, bu investisiyanın əksər hissəsi təbiəti daha çox çirkləndirən ölkələr tərəfindən ödənməlidir. Lakin hazırda həmin ölkələr buna konkret təşəbbüs və əməl göstərmirlər.

COP28 tədbiri çərçivəsində İtki və Zərər Fondunun yaradıldığını diqqətə çatdıran ictimai fəal qeyd edib ki, Səudiyyə Ərəbistanı ev sahibi kimi bu fonda 100 milyon dollar ianə verib və digər ölkələrin də fonda ianə ayırmalarını təklif edib. Fondun yaradılmasında məqsəd iqlim dəyişikliyinə məruz qalan və maliyyə imkanları aşağı olan ölkələrə kömək edilməsidir.

Onun sözlərinə görə, iqlim dəyişiklərinin təsirinə uyğunlaşma məsələsinə gəlincə, bu da təbii olaraq müəyyən tədbirlərin təşkilini və maliyyə vəsaiti tələb edir. Dünyada səhralaşmanın, quraqlığın qarşısının alınması üçün yaşıllığın salınması, su ehtiyatlarından düzgün istifadə edilməsi mühüm şərtdir. Sudan təkrar istifadə, su hövzələrinin çirklənməsinin qarşısının alınması məsələsi hazırkı həssas dönəmdə çox mühüm əhəmiyyət kəsb edir və vacibliyi ilə diqqət çəkir. Daha sonra istixana-qaz emissiyalarının tətbiq edilməsi üçün karbon tullantılarının atmosferə buraxılmasının həcmi azaldılmalıdır. Dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən nəhəng sənaye müəssislərinin sayı azaldılmalı və yaxud yeni texnologiya imkanlarına üstünlük verilməlidir.

Ekspertlərin fikrincə, bu cür məhdudlaşdırmaların həyata keçirilməsi iqlim dəyişikliyi riskini azalda və bəşəriyyəti təhlükədən xilas edə bilər. Bununla da dünyada orta illik temperaturu 1,5°C-də saxlamaq mümkün olar.

“Azərbaycan yaşıl enerji məsələsini qarşıya hədəf qoyub və işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzuru yaşıl zona elan edib. Ölkəmiz 2050-ci ilə qədər enerji təchizatının 50 faizini külək enerjisi vasitəsilə həyata keçirməyi planlaşdırır.

Bizim üçün fəxrdir ki, Azərbaycan da iqlim dəyişikliyi ilə mübarizədə öz sözünü deyir. Biz hamımız, xüsusən gənclər bu yolda dövlətimizin və Prezident İlham Əliyevin ətrafında səfərbər olacağıq”, - deyən Nərgiz Xələf fikirlərini yekunlaşdırıb.

**AZƏRTAC**
**2024, 24 avqust**